# ADAM O İNANMAĞI TUTUB ÖPMƏK İSTƏYİR...

*Söz İlahi işarədir. Sözün gücü var. Bir də söz sahibləri var. O söz sahibləri ki, sözün dəyərini bilir, onun üzərində zərgər dəqiqliyi ilə işləyir. Belə söz adamlarını tanımaq, onlarla ünsiyyət qurmaq bizim "söz" haqqında anlayışımıza yeni bir məna gətirir. "Söz adamı" layihəsinin növbəti qonağı yazar Çinarə Ömraydır.*

**- Hegel ustalıqla seçilmiş sözləri insan ruhunun qidası hesab edirdi. Həm də qeyd edirdi ki, söz seçmək və sözü duymaq sənəti insan təfəkkürünün ən yüksək mərhələsidir. Sözləri seçmək və duymaq "söz adamı" üçün nə deməkdi?**

- Bu sualı tez-tez oxuyanda yanıltmac effekti verir. Qəşəngdi. Bayaqdan onu oxuyuram bir də baxıram ki, suala cavab yazmamışam. Füzuli də deyib ki:

Mən gözəl bir süfrə açdım sözdən əhli-aləmə,
Onda min zövq artıran hər dürlü nemət düzmüşəm.
Kim gəlir-gəlsin- aparsın hər nə istər xatiri,
Qurtaran nemət deyil, süfrəmdən olmaz heç nə kəm!

Sözlərlə insan düşüncələrinə, hisslərinə, xəyalına rahatlıqla toxunmaq mümkündür. Sözlə bir ordunun qarşısını da almaq olur, ya da tam əksi. Əsas odur zamanında düzgün seçim edə biləsən. İnsanlar zamanında, yerində düzgün sözlər seçib onlardan istifadə edə bilsələr nə bunca silaha, nə bunca müharibələrə ehtiyac qalmaz. Kainatda sözlə təsir edə bilməyəcəyin insan yoxdur deyə düşünürəm. Xatirimdədir: alimlərin bir araşdırması olmuşdu, onlar suyu götürüb ona xoş sözlər deyirdilər, su damlaları çox gözəl hərəkət edir, gözəl şəkil alırdılar. Bunu təbiətdə də test etmişdilər. Yəni sözlə nəinki insana, bütün canlı varlıqlara təsir etmək mümkündür. Ancaq doğru sözləri seçməklə.

**- Bəzən mətnlərin skeptik düşüncə tərzində yazılmasını müasir dövr nəsrində mühafizəkar şəkildə tənqid edirlər. Müasir dövr nəsri ilə əvvəlki dövr nəsrində sizi yeni mətnlər yazmaqda nələr kömək edir?**

- Protagorasın fikirinə görə, "hər şeyin ölçüsü insandır. Hər şey mənə necə görünürsə, mənə görə elədir. Üşüyən üçün külək soyuq, üşüməyən üçün isə külək soyuq deyil. Hər şey üçün bütünlüklə bir-birini inkar edən iki söz deyilə bilər". Ona görə də qeyd etdiyiniz o mühavizəkar şəkildə olan tənqidləri qəbul etmək mümkün deyil.

Bayaq Hegeldən misal çəkdiniz. Hegel zəkanı varlıqdan əvvəl görür. Hegelə görə fərqliliklər yalnız ağıl sayəsində vəhdət halına gələ bilər. Bildiyimiz kimi dörd bucaq var. Amma yazmağı bacaran insan hər zaman 5-ci bucağı tapmalıdır. Sən o beşinci bucağı tapa bildinsə və hadisələrə, baş verənlərə həmən o beşinci bucaqdan dayanıb, ağlının gözü ilə baxa bildinsə dövründən asılı olmayaraq hər zaman fərqli yanaşmaların, fərqli mətnlərin olacaq.

**- Bir də görürsən ki nəzm yazan biri qəfil nəsrə keçir. Bu keçidlərdə müəyyən qədər uğursuzluqlar özünü göstərir. Bu keçidə münasibətiniz necədir?**

- Hə də, gərək qəfil keçməsin də. Məni də qəfil aparıb Mozanbikə atsalar orda heç nə edə bilmərəm. Bütün qəfil keçidlər belədir. Əslində anlayıram o adamları. Çünki bəzən insanın içində hissləri, demək istədikləri, çatdırmaq istədikləri o qədər böyük olur ki, adamlar onu bir şeirə sığdıra bilmirlər. Daha geniş izah etmək üçün nəsrə keçirlər. Ancaq bilmək lazımdır ki, Füzulinin bir beytində dediyini çoxu bir qalın romanla deyib bitirə bilməyib. Yuxarıda qeyd etdiyimiz kimi, sözləri yerində və düz seçməklə şeirdə də çox şey ötürmək mümkündür.

O ki qaldı mənim münasibətimə, məncə, insanları rahat buraxmaq lazımdır. Kim özünü harda, nədə rahat hiss edirsən onu etsin. Hər kəs uğur qazanacaq deyə bir şərt yoxdur axı. Həm də düşünürəm ki, adam özünü tapana qədər hər sahədə sınamalıdır özünü.

**- Borxes qeyd edirdi ki, yazmaq ehtirası arzuların arxasınca qaçmaqdan yaranır. Bəs sizin yazmaq ehtirasınız necə yaranır?**

- İndi mən durub desəm Borxes özünə görə deyir, məni qovalıyarlar burdan. Axı biz özümüzdənbaşqa bütün deyilmişlərə tabe olmağı sevirik. Ona görə də Borxesə toxunmadan, yavaşcana yanından sağa burularaq, sakit səslə deyirəm ki, mən heç vaxt yazmaq, yaza bilmək arzusunda olmamışam. Yəni yazmaq istəyim arzuların arxasınca qaçmaq ehtirasından yaranmayıb. Ümumiyyətlə məndə ehtirasdan 2 oğlumdan başqa heçnə yaranmayıb. Yazmaq tələbatına gəlincə isə müsahibələrin birində qeyd etmişdim ilk atama məktub yazmaqla kəşf etmişdim bunu özümdə.Atamla münasibətlərimiz o qədər də isti deyil. Uşaq olanda bu otaqdan o otağa atama məktub yazıb qoyurdum cibinə. O da sözünü anamla çatdırırdı mənə. Rəfiqəm olmayıb, məni narahat edən hadisələri, mövzuları heç vaxt bölüşəcəyim kimsəm olayıb ona görə də hər dəfəsində yazmaq köməyimə çatıb. Həm də bunun bir yanı yaxşı idi ki, yazdığın zaman öz probleminə ya yaşantına kənardan, daha soyuq nəzər sala bilirsən və əslində hisslərinin əsiri olub depressiyaya düşməyinə ehtiyac qalmır. Hadisələrə daha pozitiv yanaşa bilirsən. Zamanla içini , düşüncələrini, özünü yazıyla ifadə etməyə o qədər alışıq olmuşam ki, artıq danışanda özümü normal ifadə edə bilmirəm nəinki yazanda. Mən yazıda daha rahat, daha sərbəst , daha özüm ola bilirəm.



**- "Bacımın gülüşü" adlı hekayənizdə belə bir məqam var: "Özüm öz inanmağımı elə sevirəm ki..." Nəyə daha çox inanırsınız?**

- İnanmaq xoşuma gəlir. Mən adamlara elə qəşəng inanıram ki. Belə şirin, cıqqılı, qırmızı baş, yanağı batıq. Adam o inanmağı tutub öpmək istəyir. İnsanlara inanıram. Qarşımdakı mənim o inamımdan istifadə edirsə bu onun şəxsiyətsizliyidir deyib keçə bilirəm. Xoş olmayan çox hadisələr yaşamışam, amma heç vaxt ağlıma gəlməyib ki, buna görə bütün adamlara olan inamın sarsılsın. Əksinə, yenə də hər dəfəsində inanmağı seçmişəm. Amma heç vaxt gedib hansısa bir daşa, hansısa bir seyid deyilən kiminsə qəbrinə filan inanmamışam. Hansısa adını din qoyub beynimizə yeritməyə cəhd etdikləri inanclar məni çəkməyib özlərinə. Mən sadəcə adamlara inanıram, ağaca inanıram, yarpağa inanıram, dostumun mənə hədiyyə etdiyi ağ muncuqlu qolbağa inanıram, mən kainata inanıram. Və öz inanmağımı sevdiyim üçün inandıqlarımı da sevirəm.

**- Əgər ciddi mətnlərin yazmaq düsturünü sizdən soruşsalar bu suala necə cavab verərdiniz?**

- Mən bilmirəm özüm ciddi mətn yaza bilirəm ya yox. Ona görə də deyəcəyim düstur bəlkə onları əks yola apardı? Amma bütün hallarda ortaya gözəl iş, gözəl mətn qoya bilmək üçün, yaradılışa gözəl yanaşa bilmək üçün mənim bir düsturum var "İçimizdəki "mən"ə xəyanət etməyək...".

**- Yaradıcılıq fəaliyyətində məkan etibarilə əlverişli, zaman etibarilə uyğun bilmədiyiniz məqamlar.**

- Bu adama görə dəyişir. Məsələn, tanıdığım dostlar var ki, çoxu zaman yol gedə-gedə, metroda, avtobusda telefonun qeydiyyat yaddaşına yazır mətnlərini. Bu daha çox şeir yazan dostlarda olur. Deyirlər təbim gəldisə yazmalıyam yoxsa gedəcək. Onu da qeyd edim ki, məkanın mətnə təsiri olur. Məsələn, mən oxuduğum mətnə o qədər həssas yanaşıram ki, o mətnin qoxusunu, müəllifin hansı əhvalda yazdığını hiss edə bilirəm. Hansısa bir şeiri oxuyursan qəribə havanın ətri vurur səni. Soruşuram müəllifdən deyir bir yaz səhəri idi, parkda oturmuşdum onda yazdım.

Bir dostumuz var onun mətnlərindən qəribə bir ağırlıq var, qəribə bir qoxusu var. Hər dəfə oxuduqda qəribə bir qoxu vurur adamı. Bir dəfə özünə dedim xeyli güldü dedi düz tutmusan mən əksər şeirləri tualetdə oturanda yazıram.

Məndə isə tam fərqlidi. Harda gəldi orda yazım anlayışı yoxdu. Mən oturub ciddi bir yazını o zaman yazaram ki,artıq onu içimdə daşıya bilmirəm, artıq ona gücüm çatmır. Hiss edirəm ki, çiyinlərim dil açıb ağlamaq istəyir. O zaman özüm üçün otağımda sakit bir yer seçirəm kompüterimi götürüb öz köşəmə çəkilirəm və özümü o ağırlıqdan xilas etməyə çalışıram.

**- Ədəbi tənqidə münasibətiniz?**

- Bizdə ədəbi tənqid 13-cü imam kimidi. Adı var, hamı gözləyir amma hələ də gəlib çıxmır. Eyni zamanda hamının da ümüdü var gəlməsinə.

**- Dünya ədəbiyyatından oxumağa vacib bildiyiniz əsərlər....**

- Bu sual çox çətindir. Elə bil ki, balıq yeməyi hədsiz sevən birinə deyirsən ki, "Okeanda hansı balıq növünü yeməyi məsləhət görürsünüz?" hansı ki, orda milyonlarca balıq növü var. Adam qayıdıb acgözlüklə hamısını deyə bilər.

Eynən düşünürəm ki, bacara bildiyin qədər hamısını oxumaq lazımdır. Mən daha çox hekayələr yazdığım üçün Çexovu daha çox sevirəm. Düşünürəm onu hamı oxumalıdır.

**- Çağdaş dövr Azərbaycan ədəbiyyatından kimləri oxuyursunuz?**

- Kamal Abdulla, Salam Sarvan, Fəxri Uğurlu, Şərif Ağayar, Pərviz Cəbrayıl, Qismət Rüstəmov, Aqşin Yenisey və bir çoxları.

**- Keçmiş yoxsa gələcək?**

- Bizdə hazırki cəmiyyət 2 hissəyə ayrılıb. Bir qismi keçmiş deyir. Məsələn, bütün addımlarda adamın keçmişini araşdırmağa, onun keçmişdə nə etdiyi, kim olduğunu bilməyə meyillidirlər. Və bütün qərarları da onları bildikdən sonra verərlər. Digər bir qismi keçmişinin düz olması üçün gələcəklə yaşayarlar.Məsələn, bunu etməyim gələcəkdə uşağımın adına söz gələr, filan şey edim gələcəkdə fəxri ad verdilər bəlkə.

Bunlardan dolayı heç kim bu gününü yaşaya bilmir adamlar hey təlaş içindədi. Qalaktikaya nisbətdə bizim ömrümüz 11dəqiqədən ibarətdir. Gəlin çönüb baxaq. Bu 11dəqiqəyə nə qədər dərd, problem, qaça-qaç yerləşdirirlk. Halbu ki, daha dolu yaşamaq olar.

Mənə görə nə keçmiş, nə gələcək nə də bu gün. İndi!

**- Son olaraq "söz" haqqında sözünüz...**

- Söz haqqında nə deyə bilərəm ki? Ətrafda gördüyümüz bütün gözəlliklər, bütün insanlar, meşələr, ağaclar, yaşılıqlar, çaylar sular bir sözlə bütün kainat bir "OL" sözüynən yaranıbsa mənim söz haqqında nəsə deməyim yersizdir.

**Söhbətləşdi:**
**Tural Cəfərli**